# İtirilmiş yurdun yadigarları

## *Sumqayıtdakı "Didərgin muzey" Qərbi Azərbaycan nisgilinə ayna tutur*

**Əslən Qərbi Azərbaycanın Qafan rayonunun Həçəti kəndindənəm. 1957-ci il avqustun 18-də anadan olmuşam. 1981-ci ilə qədər doğulduğum kənddə, sonra isə iş yerimlə əlaqədar Qafan şəhərinə yaxın Zeyvə qəsəbəsində yaşamışam. Kəndimiz Kiçik Qafqaz dağlarının ətəyində yerləşirdi. Hər tərəf sıx meşələrlə örtülmüşdü. Kəndimizdə çox qədim Alban qəbiristanlığı, Alban kilsəsi vardı. Bu kəndin əhalisi, əsasən, maldarlıqla məşğul olurdu. Kənd Qafan rayonunun mərkəzindən 30 kilometr şimal-qərbdə yerləşirdi.**

1905-1918-ci, eləcə də 1948-1956-cı illərdə ermənilər Qafan rayonunda yerləşən Azərbaycan kəndlərinə hücumlar etmişdilər. Əhali özünü qorumaq məqsədilə bu əraziyə yaxın olan Naxçıvan Muxtar Respublikasına və Qubadlı-Zəngilan bölgəsinə pənah aparmışdı. Yaşlı nəslin danışdığına görə, onlar yalnız erməni talanları qurtardıqdan sonra yenidən öz yurdlarına qayıtmışdılar.

1988-ci ildə isə ermənilər yenidən Qafanda, eləcə də bura yaxın olan Qacaran şəhərində azərbaycanlılara qarşı mitinqlər keçirməyə başladılar. Mitinqlərdə əsas mövzu "Qarabağ bizimdir" şüarı idi. Biz bu ideyanın ilk öncə nədən ibarət olduğunu başa düşmürdük. Erməni millətçiləri şəhər və kəndlərdə yaşayan həmvətənlərimizə hücum edir, iş yerlərində, şəhərlərin küçə və meydanlarında soydaşlarımıza qarşı görünməmiş vəhşiliklər törədirdilər. Onlar azərbaycanlılardan şəhəri təcili tərk etmələrini tələb edirdilər. Bu tələbin qarşısında aciz qalmayan azərbaycanlılar onlara layiqli cavab verdikdə, bu, böyük silahlı toqquşmalara gətirib çıxarırdı. Nəticədə həmyerlilərimizin günahsız qanı tökülür, onlar əsassız yerə həbs olunur və mülkləri yandırılırdı. Yerli hökumət orqanları tərəfindən müdafiə olunmayan azərbaycanlılar məcburi surətdə doğulub boya–başa çatdıqları torpağı tərk edirdilər.



Belə bir ağır taleyi yaşamaq mənim də bəxtimə düşmüşdür. Belə ki, mən öz doğma vətənimi tərk edərkən ev əşyalarımdan heç bir şey gətirə bilmədim. Amma əvəzində Zəngəzurla bağlı çox sayda muzey eksponatı gətirdim. O zaman Qafan rayonu 21 nömrəli texniki-peşə məktəbində müəllim işləyirdim. Hər gün işimlə əlaqədar Qafan şəhərində olurdum. Bir gün işdən çıxıb gələrkən ermənilər məni avtobusa minməyə qoymadılar. Mənə əl-qol atdılar və hədələdilər:

– Bu gün səni öldürmürük, get evinə, onsuz da sizin yaşadığınız qəsəbəni bütövlüklə yandıracağıq.

Məni təhqir edən, təpikləyən ermənilərdən canımı qutarıb evə gəldim. Ev əşyalarımı daşımağı ağlıma belə gətirmirdim. Müəllim işlədiyim Müsəlləm kənd 8 illik məktəbinə getdim. Uzun illər burada sevə-sevə topladığım eksponatları qonşunun yük maşınında mənzilimə gətirdim. Oradan isə bu əşyaları böyük bir çətinliklə də olsa, Azərbaycana keçirə bildim. Bu gün həmin eksponantlar Sumqayıt Şəhər Tarix-Diyarşünaslıq Muzeyində "Didərgin muzey" adı ilə bir guşədə yerləşdirilmişdir.



1993-cü il dekabrın 28-də ulu öndərimiz Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra Sumqayıta səfər etmişdi. O zaman mən dahi şəxsiyyəti muzeyin girişində qarşılayanlardan biri olmuşam və "Didərgin muzey"lə bağlı, təxminən, iyirmi dəqiqə Ulu öndərə məlumat vermişəm.

Ev əşyalarımın yerinə Zəngəzurun tarixi ilə bağlı 350-dən artıq eksponatı gətirdiyimi biləndə Ulu öndər təşəkkür etdi. Mən tezliklə Sumqayıt Şəhər İcra Hakimiyyətində işə qəbul olundum. Həmin vaxtdan 2006-cı il iyunun 1-dək şəhər icra hakimiyyətinin ərazi idarəetmə orqanlarıilə iş şöbəsində baş məsləhətçi vəzifəsində işləmişəm.

Hazırda Sumqayıt şəhər 39 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışıram.

***Bəxşeyiş ƏLƏMŞAHOV***

Xalq qəzeti .- 2025.- 16 aprel (№ 74).- S.12.